# (HƏDIS (4 10

<"xml encoding="UTF-8?>

(HƏDIS (4 10

".Hədis 31: Həzrət Məhəmməd (s) buyurur: "Allah-təala duadа israr edənləri sevər

* * *

Hədis 32: Həzrət Məhəmməd (s) buyurur: "Allah-təala, bəndəsinin Ona tərəf uzadılmış əlini geri ".qaytarmaqdan və onu ümidsiz qoymaqdan həya edər

* * *

".Hədis 33: Həzrət Məhəmməd (s) buyurur: "Allah-təala boş söz-söhbətləri sizə qadağan etdi

* * *

Hədis 34: Həzrət Məhəmməd (s) buyurur: "İsrafın bir növü də ürəyin istədiyi hər bir şeyi ".yeməkdir

* * *

Hədis 35: Həzrət Məhəmməd (s) buyurur: "Hər kəs Allahdan bir şey istəməsə, Allah ona ".qəzəblənər

* * *

Hədis 36: Həzrət Məhəmməd (s) buyurur: "Öz sübhünüzü sədəqə verməklə başlayın, çünki bəla ".sədəqənin üstündən keçə bilmir

* * *

Hədis 37: Həzrət Məhəmməd (s) buyurur: "Sübh tezdən ruzi və hacət dalınca gedin, çünki ".tezdən durmaq bərəkət və qurtuluşa səbəbdir

* * *

Hədis 38: Həzrət Məhəmməd (s) buyurur: “Varlıların yediyi, fəqirlərin isə məhrum olduğu toy ”.xörəyi necə də pisdir

* * *

Hədis 39: Həzrət Məhəmməd (s) buyurur: “Paxıl (xəsis) o şəxsdir ki, adım çəkiləndə mənə ”.salavat göndərmir

* * *

”.Hədis 40: Həzrət Məhəmməd (s) buyurur: “Çox yemək qəlbdə qəsavət (daşürəklilik) yaradır